Azərbaycan Respublikası
İqtisadi İslahatların Təhlili və
Kommunikasiya Mərkəzi



# İXRAC İCMALI

İyun 2024

www.ereforms.gov.az
info@ereforms.gov.az

# BİZ XARİCİ BORCUMUZU TƏXMİNƏN 100 FAİZDƏN 7,7 FAİZƏ ENDİRMƏYƏ MÜVƏFFƏQ OLMUŞUQ.

Neft və qaz ehtiyatlarına sahib olduğumuza görə bizi heç kəs günahlandıra bilməz. Bunu bizə Allah yetirib. Bizim işimizə bu ehtiyatların mövcudluğu əsasında deyil, onlardan hansı şəkildə istifadə etdiyimizə görə qiymət verilməlidir. Biz bu sərvəti müxtəlif vasitələrlə cəmiyyətə yönəltmişik, biz inklüziv cəmiyyət qura bilmişik, biz yoxsulluğu 50 faizdən 5 faizə endirə bilmişik, biz xarici borcumuzu təxminən 100 faizdən 7,7 faizə endirməyə müvəffəq olmuşuq.



**Azərbaycan Respublikasının Prezidenti cənab İLHAM ƏLİYEVİN 04.06.2024-cü il tarixində Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - "Caspian Energetika və Yaşıl Enerji - "Caspian Power" sərgilərinin rəsmi açılış mərasimində çıxışından**

2024 İXRAC İCMALI iyun

# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat — səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi — səh. 14

Azərbaycan Respublikasının Kosmik Agentliyinə (Azərkosmos) aid xidmət ixracı haqqında məlumat — səh. 17

Qeyri-rezidentlər tərəfindən aparılan bank əməliyyatları haqqında məlumat — səh. 19

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən qeyri-neft ixracı haqqında məlumat — səh. 21

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

## 2024-cü ilin yanvar-may ayları ərzində 11,1 milyard ABŞ dolları dəyərində mal ixrac olunmuşdur

## Cari ilin yanvar-may aylarında qeyri-neft sektoru üzrə ixrac 1,3 milyard ABŞ dolları təşkil etmişdir

2024-cü ilin yanvar-may ayları ərzində Azərbaycanın ümumi ixracı **11,1 milyard** ABŞ dolları, qeyri-neft sektoru üzrə ixrac isə **1,3 milyard** ABŞ dolları təşkil edib. 2024-cü ilin yanvar-may ayları ərzində yeyinti məhsulları üzrə ixrac **365 milyon** ABŞ dollarına bərabər olub.

2024-cü ilin beş ayı ərzində pambıq ixracı 62%, bitki və heyvan mənşəli piylər və yağların ixracı 30,3%, çay 6,4%, meyvə-tərəvəz ixracı isə 3,8% artıb.

Carı ilin beş ayı ərzində aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri **12,2%** artaraq **391,75 milyon** ABŞ dolları təşkil edib. Qeyri-neft/qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər **18,3%** artaraq **109,11 milyon** ABŞ dolları təşkil edib.

2024-cü ilin yanvar-may ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pomidor (tomat) (**108,6 milyon** ABŞ dolları) birinci olub. Bu

siyahıda pambıq mahlıcı (**99,5 milyon** ABŞ dolları) ikinci, elektrik enerjisi (**50,2 milyon** ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2024-cü ilin yanvar-may ayları ərzində Rusiya Federasiyasına 427 milyon ABŞ dolları, Türkiyəyə **264,9 milyon** ABŞ dolları, Gürcüstana **95,8 milyon** ABŞ dolları, ABŞ-yə **95,6 milyon** ABŞ dolları, İsveçrə Konfederasiyasına isə **47,8 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub..

2024-cü ilin may ayının qeyri-neft ixracı **340,9 milyon** ABŞ dolları olub. Yeyinti məhsulları üzrə ixrac **96,6 milyon** ABŞ dolları, qeyri-yeyinti məhsulları üzrə ixrac isə **35,7%** artımla **244,3 milyon** ABŞ dolları təşkil edib..

2024-cü ilin may ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası (**109,4 milyon** ABŞ dolları) birinciliyə yüksəlib. Bu siyahıda ABŞ (**78,9 milyon** ABŞ dolları) ikinci və Türkiyə (**59,6 milyon** ABŞ dolları) üçüncü olub.

2024-cü ilin may ayında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pomidor (tomat) (**37,4 milyon** ABŞ dolları) birinci, pambıq mahlıcı (**21,2 milyon** ABŞ dolları) ikinci və qızıl (**13,9 milyon** ABŞ dolları) üçüncü olub.



# 2024-CÜ İLİN YANVAR-MAY AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

## (2023-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2024 İXRAC İCMALI iyun



# 2024-CÜ İLİN MAY AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2024 İXRAC İCMALI iyun

2023 2024

+22,5%

278,2 mln



340,9 mln

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2024-CÜ İLİN MAY AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2023-cü ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2024
İXRAC İCMALI
iyun



# 2024-CÜ İLİN YANVAR-MAY AYLARI ƏRZİNDƏ AQRAR VƏ AQRAR-SƏNAYE MƏHSULLARININ İXRACI

(2023-cü ilin müvafiq dövrü ilə müqayisədə, faizlə)

2024 İXRAC İCMALI iyun

Aqrar məhsullar

Aqrar-sənaye məhsulları

**391,75 mln $**

2023/2024 **+12,2%**



2023/2024 **+10%**

**282,6 mln $**

**109,11 mln $**

2023/2024 **+18,3%**

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2024-CÜ İLİN YANVAR-MAY AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI iyun




Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2024-CÜ İLİN MAY AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI iyun




Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

# 2024-CÜ İLİN YANVAR-MAY AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI iyun

| Mal | 2024 | 2023 |
|---|---|---|
| Tomat (pomidor) | 108,6 | 91,5 |
| Pambıq mahlıcı | 99,5 | 50,4 |
| Elektrik enerjisi | 50,2 | 313,9 |
| Meşə fındığı | 46,6 | 52,8 |
| Alüminium ərintilərindən düzbucaqlı plitələr | 46,5 | 15,5 |
| Qızıl | 45,3 | 47.2 |
| Karbamid | 40,1 | 30,4 |
| Xüsusi kütləsi 0,94 və ya daha çox olan ilkin formalı polietilen | 38,9 | 34,8 |
| Metanol (metil spirti) | 37,8 | 37,8 |

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2024-CÜ İLİN YANVAR-MAY AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)




Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2024-CÜ İLİN MAY AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2023-cü ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI iyun

| | 2024 | 2023 |
|---|---|---|
| Tomat (pomidor) | 37,4 | 37,3 |
| Pambıq mahlıcı | 21,2 | 12,1 |
| Qızıl | 13,9 | 2,6 |
| Kartof | 12 | 19,9 |
| Alüminium ərintilərindən düzbucaqlı plitələr | 10,9 | 4,1 |
| Xüsusi kütləsi 0,94-dən çox olan ilkin formalı polietilen (PE) | 9,7 | 7,6 |
| Digər yağlar və məhsullar | 9,2 | 17,1 |
| Metanol (metil spirti) | 8,6 | 6,9 |
| Çiyələk | 8,3 | 5,6 |

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2024-cü ilin yanvar-may ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar:

"Silk Vey Vest Aviaşirkəti" MMC, "MKT İstehsalat Kommersiya" MMC, "Baku Steel Company" QSC, "P-Aqro" MMC, "Sadromaks Co" MMC, "My Vegetables" MMC, "GreenTech" MMC, "Mors Trading" MMC, "Binə Aqro" QSC, Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC. Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə ARDNŞ-nın Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Socar Polymer" MMC, "Azəralüminium" MMC, "Azərenerji" ATSC, "AzerGold" QSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, Naxçıvan MR Dövlət Energetika Xidməti, "Azəripək" MMC "Azərbaycan Dəmir Yolları" QSC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

2024 İXRAC İCMALI iyun

# 2024-CÜ İLİN YANVAR-MAY AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)




Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2024-CÜ İLİN YANVAR-MAY AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2024 İXRAC İCMALI iyun




Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

3

# "AZƏRKOSMOS"A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT

Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

## 2024-cü ilin yanvar-may aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") **7,9 milyon ABŞ dolları** dəyərində telekommunikasiya xidməti ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri sahəsi xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2024-cü ilin yanvar-may aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) tərəfindən dünyanın 47 ölkəsinə **7,9 milyon ABŞ dolları** dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 78 faizini təşkil edib. 2024-cü ilin may ayında isə "Azərkosmos" dünyanın 39 ölkəsinə **1,5 milyon ABŞ dolları** dəyərində xidmət ixrac edib.

2024-cü ilin yanvar-may ayları ərzində peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində isə 2,5 milyon ABŞ dolları ilə Birləşmiş Krallıq, 1,6 milyon ABŞ dolları ilə Lüksemburq, 497,5 min ABŞ dolları ilə BƏƏ, 302,5 min ABŞ dolları ilə Almaniya və 290,1 min ABŞ dolları ilə Pakistan qərarlaşıb.

# 2024-CÜ İLİN YANVAR-MAY AYINDA AZƏRBAYCAN RESPUBLİKASININ KOSMİK AGENTLİYİ (AZƏRKOSMOS) 7,9 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ PEYK TELEKOMMUNİKASİYA XİDMƏTLƏRİ İXRAC ETMİŞDİR

2024 İXRAC İCMALI iyun



**AZERSKY**

Yerin məsafədən müşahidə peyki missiyasını 1 il daha tez, yəni fəaliyyətinin 9-cu ilində başa çatdırdığından optik peyk xidmətləri üzrə məlumatlar cədvəldən çıxarılıb.

## Xidmət ixrac etdiyi 5 əsas ölkə

| | |
|---|---|
| 2,5 mln $ | Birləşmiş Krallıq |
| 1,6 mln $ | Lüksemburq |
| 497,5 min $ | BƏƏ |
| 302,5 min $ | Almaniya |
| 290,1 min $ | Pakistan |

4

# QEYRİ-REZİDENTLƏR TƏRƏFİNDƏN APARILAN BANK ƏMƏLİYYATLARI HAQQINDA MƏLUMAT

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

2024-cü ilin yanvar-may ayları ərzində banklara məxsus ödəniş xidməti şəbəkəsində digər qeyri-rezident maliyyə institutlarının emissiya etdiyi ödəniş kartları ilə **981,7 milyon** manatlıq əməliyyat aparılıb.

Koronovirus (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyət digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna təsirsiz ötüşməyib.

2024-cü ilin may ayında banklara məxsus ödəniş xidməti şəbəkəsində digər qeyri-rezident maliyyə institutlarının emissiya etdiyi ödəniş kartları ilə aparılan əməliyyatların həcmi **225,8 milyon** manat təşkil edib. 2024-cü ilin yanvar-may aylarında isə banklara məxsus ödəniş xidməti şəbəkəsində digər qeyri-rezident maliyyə institutlarının emissiya etdiyi ödəniş kartları ilə aparılan əməliyyatların həcmi **981,7 milyon** manat təşkil edib.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# BANKLARA MƏXSUS ÖDƏNİŞ XİDMƏTİ ŞƏBƏKƏSİNDƏ DİGƏR QEYRİ-REZİDENT MALİYYƏ İNSTİTUTLARININ EMİSSİYA ETDİYİ ÖDƏNİŞ KARTLARI İLƏ APARILAN ƏMƏLİYYATLAR (milyon manatla)

2024 İXRAC İCMALI iyun

| | 2022 | 2023 | 2024 |
|---|---|---|---|
| Yanvar | 204,7 | 171,5 | 187,9 |
| Fevral | 186,5 | 162,3 | 184,3 |
| Mart | 158,6 | 218,1 | 173,7 |
| Aprel | 136,6 | 144,6 | 210 |
| May | 184,1 | 173,4 | 225,8 |
| İyun | | | |
| İyul | | | |
| Avqust | | | |
| Sentyabr | | | |
| Oktyabr | | | |
| Noyabr | | | |
| Dekabr | | | |
| | **870,4 mln** | **869,9 mln** | **981,7 mln** |

Mərkəzi Bankın təqdim etdiyi statistika əsasında

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

6

# “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN QEYRİ-NEFT İXRACI HAQQINDA MƏLUMAT

Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

## 2024-cü ilin iyun ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən 25,1 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə 2024-cü ilin iyun ayı ərzində **180 müraciət** daxil olub. Müvafiq dövr ərzində **374 ədəd** sertifikat (144 ədəd mənşə, 217 ədəd fitosanitar, 13 ədəd CİTES) təqdim edilib.

2024-cü ilin iyun ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə **25,1 milyon** ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir. Qeyd edilən dövr ərzində fiziki və hüquqi şəxslər tərəfindən qiymətli metallar, pambıq mahlıcı, pambıq çiyidi, pambıq çiyidi yağı, süd, pendir, kərə yağı, limonad, nar, alma şirəsi, qarışıq şirələr, narşərab, əridilmiş heyvan piyi, akvakultur üsulu ilə yetişdirilmiş balıqların kürüsü, tibbi zəli, fasad örtükləri, inşaat kərpici, gips daşı, plastik yeşik, ferrosilisium, polad armatur yayması, polad borunun ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən məhsullar arasında qiymətli

metallar, pambıq mahlıcı, polad boru, süd məhsulları, meyvə şirələrinin ixracı üstünlük təşkil etmişdir. İxrac edilən ölkələr arasında İsveçrə, Gürcüstan, Belarus, Finlandiya, İsrail, İtaliya, Litva, Rusiya, Türkiyə, Ukrayna, Türkmənistan, Almaniya, ABŞ, Fransa, Niderland, Qırğızıstan, Özbəkistan, Polşa, Qazaxıstan, BƏƏ, Əfqanıstan üstünlük təşkil etmişdir.



# 2024-CÜ İLİN İYUN AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI

**(milyon ABŞ dolları ilə)**

2024 İXRAC İCMALI iyun




Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ VERİLƏN SERTİFİKATLAR

(faizlə)



**58%**

Fitosanitar sertifikatı

**38,5%**

Mənşə sertifikatı

**3,3%**

CİTES sertifikatı

**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**

AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
"İxrac İcmalı" jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

www.ereforms.gov.az

/iqtisadiislahat